# Tənhalığın doğmalığı

*Nəriman Əbdülrəhmanlının "Yalqız" romanı barədə*



■ **Gülayə**



Nəriman Əbdülrəhmanlının "Yalqız" romanının elə ilk abzası, sətirləri ilə tanışlıq əlbəəl öz şəhadətini verir ki, roman alınıb. Qarşında oxunaqlı, illər boyu iç dünyanda yaşatdığın düşüncələrlə səsləşən, əksər hallarda, elə öz dünyanın yaşantıları olan bir kitab var. Eyni zamanda onu da duymamış olmursan ki, əsərdə bəhs olunan yalqızlıq cismani təkliyin, kimsəsizliyin doğurduğu təəssürat deyil. Burada söhbət sözün həqiqi mənasında mənəvi, ruhi yalqızlıqdan, vakuumdan gedir. Hər halda elə ilk səhifələrin doğurduğu assosiasiya belədi. Bunu lap ilkdən, əvvəldən Herman Hessedən gətirilən sitat da bütün mükəmməlliyi ilə ortaya qoyur. Oxucu elə bu sitatla tanışlıq məqamındaca özünü hazırlamalı olur ki, söhbət hansı bir mənəvi yalqızlıqdan, tənhalıqdan gedir.

N.Əbdülrəhmanlının "Yalqız"ının demək olar ki, bütün təfsilatı H.Hessedən gətirilən bu ayırmanın ifadə etdiyi boşluğun, əslində, tənhalığın müxtəlif yönlərdən daha da genişləndirilməsinə, yeni çalar və ştrixlərlə bütöv bir aləmin canlandırılmasına xidmət edir. Bu prosesdə ədəbi qəhrəmanın (haradasa, müəllifin özünün) gündəlik həyatda, yaşam prosesində üzbəüz gəldiyi, çox vaxt özünün də iştirak etdiyi hadisələrin, müxtəlif biçimli əhvalatların mətnə yansıması oxucu fikrini alıb aparır, əsərin oxunaqlığını və maraq dairəsini təmin edir.

Ən maraqlı, yaddaqalan cəhət odur ki, N.Əbdülrəhmanın təqdim etdiyi yalqız obrazı heç də tərkidünya, unudulmuş bir kimsə deyil. İlk növbədə bir ömür boyunca yaşam tərzini müşahidə etdiyi, gündəlik həyatda rast gəldiyi insanların, iş yoldaşlarının, oturub-durduğu kəslərin obrazları, tanış sifətləri onunladı. Məsələnin bir tərəfi də var ki, bu personajlar diqqətli oxucunun hər birinə tanışdı. Elə bil ilk sətri, cümləni müəllif özü yazır, obrazın ilk bir neçə dəqiq ştrixini təqdim edir, qalanı, sonra gələn təəssüratlar artıq oxucunun özünün göz önünə gətirdikləridi. N.Əbdülrəhmanlı canlı, gündəlik həyatdan götürdüyü obrazları ən xarakterik xüsusiyyətlərinə qədər və özünün bu insanlara münasibətini də əlavə etməklə elə yaradır ki, oxucu Yazıçı, Tənqidçi, Naşir, Qəzetçi obrazlarının alt qatında kimin, kimlərin dayandığını seçib-ayıra bilir. Və bu müşahidələrdə yazıçı münasibəti bütün hallarda oxucu qənaətləri ilə üst-üstə düşür. Təəssüf doğuran cəhət odur ki, bəzi məqamlarda yazıçı məsələlərin mahiyyətinə o qədər varır, aludə olur ki, az qala bu, qeybətə, publisistik təqdimata çevrilir. Ancaq bu məqamlar ümumi halda keçəri olur, müəllif hər dəfə özünü toparlamaq gücünə sahib çıxa bilir, bədiilik, oxunaqlı və özünəməxsus təhkiyə önə keçir: "...dedi, gəlməyinə xoş gəlmisən, həmişə gəlib-getdiyin yer deyilmi, amma belə iş vardısa, gərək qabaqcadan zəng eləyəydin. Ona görə ki, mən sadəcə burada olmaya bilərdim. Adamın o qədər dərdi-azarı var, adını da yaddan çıxarır; ya da sənin istədiyini vermək imkanım olmazdı..."

İlk məqamda oxucuya elə gəlir ki, hər şey yaxşıdı. Elə əsərin qəhrəmanı da belə düşünür. Su öz cığırıyla axır. Ancaq kifayət qədər iqtisadi imkana malik dünənki dostun (belə deyək ki, ərk yerinin) elə ilk kəlmədəncə "amma" deyə məsələyə "mız" qoyması həm də qarşı tərəfin içində şübhə toxumu əkməmiş olmur. Az keçməmiş əndişə özünü doğruldur. Əl tutası kəs əvəzində dədə-baba məsləhəti verməyə başlayır: "De görüm özün necəsən, gözümə birtəhər dəyirsən, xəstələnib-eləməmisən?.. Get gir yorğana, bir-iki stəkan mürəbbəli çay iç, başını bürü, yat, tərləsən-açılacaqsan..."

Əslində, ehtiyac içində çapalayan və maddi imkansızlıq səbəbindən imkanlı dostunun qapısını açmağa məhkum olan şəxsi məsləhət bilinən mürəbbəli çay, isti yorğan-döşək yox, ərk yerinin bu biganə məsləhəti tərlədir. O qədər ki, korpeşman durub getmək istəyəndə xudahafizləşməyi də unudur: "Çiynimə vuranda döndüm, əlini uzadıb vidalaşmaq istəyirdi... Mən də yüngülcə əl verdim. Üzünə baxmasam da, bilirdim, bu məqamda üz-gözündən döyülmüş itə oxşayır. Onu bu vəziyyətə gətirib çatdırdığım üçün özümə acığım tutdu; mənə deyən gərək, oturmuşdun oturduğun yerdə, yol basa-basa onun yanına niyə gəlirsən. Mənə borcu-filan yoxdu ha, nəyəsə ümid edəydin, dostluq öz yerində, haqq-hesab başqa şeydi. İndi budu, arada gözəgörünməz bir tel qırıldı..."

Ədəbi qəhrəmanın düşdüyü bu xoşagəlməz vəziyyətdə öz keçmiş dostunun ona göstərdiyi soyuq münasibətə qarşı belə insani düşüncə sərgiləməsi təbii ki, ona daha çox rəğbət doğurur. Bilirsən ki, bu insanın ərkində, lap elə umacağında heç bir xılt, məqsədli yanaşma yoxdu. Onun yerinə hansı məqamdasa bizim özümüzdən kimsə ola bilər. Belə adamlar ən fikirli, problemli anlarında belə adi bir xoş münasibətdən mütəəssir ola bilərlər, sevincləri, xoşbəxtlikləri yerə-göyə sığmaya bilər: "Bunları da üçüncü mərtəbənin pilləkanından aşağı enə-enə beynimdən keçirirdim. Həm də boynumun ardıyla hiss eləyirdim: dostum hələ kabinetinin ağzında durur, mənim ayaq səslərimin dəhlizdən, sonra pilləkandan kəsilməyini, giriş qapısının açılıb-örtülməyini gözləyir. Nəhayət, üzündəki elə həmin ifadəylə keçib yerində oturacaq, ilk telefon zənginə, yaxud kiminləsə ilk münasibətinəcən eləcə qalacaq... Əlim ətəyimdən uzun qayıdıram... Allah əvəzini yetirər deyə düşündüm... Allah, doğrudan da, əvəzini yetirdi; köşkdə işləyən oğlan məni görən kimi yağlı bir salam verdi, sonra sözlü-sözlü qımışdı, qırımından belə başa düşdüm ortada nəsə var... Gülə-gülə dedi: - Müəllim, sizi bir oğlan axtarırdı, xeyli gözlədi, sonra bir karton qutu qoydu, dedi, gələndə verərsən. O saat ürəyimə damdı; anam pay göndərib..."

Təbii ki, romanda ədəbi qəhrəmanın hər bir addımını izləyən hadisələr, onun olaylara münasibəti təkcə şəxsi müstəviyə qapanıb qalmır. Onun (və ilk növbədə müəllifin) baxış bucağı daha çox cəmiyyətə, bu müstəvidə mühitə açıqdı. Bu münasibətdə ərdəmli bir dünyagörünüşlük, könlü-gözü toxluq, ədalət hissi özünü bütöv şəkildə sərgiləyir. O yerdə ki, qənaətlərində azacıq şübhə yeri hiss edir, o saat "Allah günahımdan keçsin" üzrxahlığı etməyi unutmur. Əslində, ədəbi qəhrəmanın yalqızlığı şəxsi həyatının doğurduğu iztirablardan daha çox, gündəlik təmasda olduğu mühitdə, daha çox da tanıdığı, istəyib-istəməməyindən asılı olmayaraq salam verib-əleyk aldığı Şair, Yazıçı, Tənqidçi, Qəzetçi, Jurnalist həmkarlarının özləri üçün adi vərdişə çevirdikləri gerçəkliklə, durumla bağlıdı. Bir fərd olaraq bu sahədəki neqativ cəhətlərlə bağlı ən adi münasibəti o, qəbul etmir. Qəbul etmədikcə də bir kənara çəkilir, təəssüfünü içinə salır, yalqızlaşır. Eyni zamanda da ədəbi qəhrəmanın ucqar kənddə yaşayan anasına baş çəkməsi üçün əlindən gələni əsirgəməyən, ona yolpulu düzəltməkdə kömək edən, əl tutan yazıçı dostunun xatirəsini də unutmur. Deməli, həyat bütün detalları - yaxşı və neqativ tərəfləri ilə bir arada təqdim olunur. Bu təqdimatda əyləşdiyi şahlıq taxtına zərər yetməsin deyə oğlunun gözünə mil çəkdirən hökmdar atanın yalnız öz içində daşıdığı acı təəssüf də var, yazıçı adıyla sponsor axtarışına çıxan xanım qıza qarşı qardaşının əksinə olaraq öfkələnən namuslu bir qələm adamının qəzəbi də. Ancaq bütün hallarda qərəz, bədxahlıq, pislik anlayışı, düşüncəsi yoxdu. Bütün etirazlar təhkiyədən irəli gələn yumşaq, düşündürücü bir tərzdə ifadə olunur. Bu səbəbdən də heç ədəbi qəhrəmanın yalqızlığı da adam üşütmür, bıktırmır, onun pərakəndə halda roman boyu səpələnmiş müşahidələri xüsusi həssaslıqla izlənir. Bütövlükdə isə oxucu "Yalqız"da özünü, öz həmkarını, fikirdaşını tapır.